Azərbaycan Respublikası təhsil nazirinin
15 noyabr 2016-cı il tarixli 726 nömrəli əmrinə
2 nömrəli əlavə

**“Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında” mövzusunda orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Breyn Rinq üzrə respublika çempionatının keçirilmə**
**Qaydaları**

**1. Ümumi müddəalar**

“Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında” mövzusunda orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Breyn Rinq üzrə respublika çempionatının əsas məqsədi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin, zəngin irsinin multikultural və tolerant dəyərlər işığında gənc nəsil arasında təbliği, eyni zamanda gənc nəslin elmə, maarifləndirici yarışlara marağının artırılması, məktəblilərin intellektual və yaradıcı inkişafına təkan verilməsi, şagirdlərin intellektual fəaliyyətə daha geniş miqyasda cəlb edilməsinin və asudə vaxtlarının səmərəli təşkilinin təmin olunmasından ibarətdir.

Çempionatın əsas vəzifəsi Azərbaycan Respublikasının müxtəlif regionlarında ən güclü orta-ixtisas müəssisələri komandalarını müəyyən etmək və onların gələcək inkişafına şərait yaratmaqdan, həmçinin, Azərbaycan Respublikasının şəhər və rayonlarında məktəblilərin intellektual və yaradıcılıq səviyyəsinin yüksəldilməsinə nail olmaqdır.

**2. Çempionatın keçirilmə qaydaları:**

Siyahı üzrə çempionata cəlb olunmuş hər bir orta-ixtisas müəssisəsi öz komandasını formalaşdıraraq “Heydər Əliyev şəxsiyyəti multikultural və tolerant dəyərlər işığında” mövzusunda orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında Breyn Rinq üzrə respublika çempionatında iştirak etmək hüququ qazanır.

Çempionat 16 noyabr saat 14:00-da Masallı ASAN xidmət ərazisindəki “ASAN İntelektual” İnkişaf Mərkəzində keçiriləcək.

**3.Yarışın qaydaları:**

- yarışda 10 komanda iştirak edir
- yarış olimpiya sistemi ilə keçirilir
- çempionatda iki komanda oynayır (hər komandada 6 oyunçu)
- bütün oyunlar 5 xala qədər oynanılır.

- səslənən suala cavabı hazır olan komanda düyməni basmaqla işarə edir. Cavab üçün düyməni aparıcı “Vaxt gedir!” kəlməsini dedikdən və serena siqnalı səsləndikdən sonra 20 saniyə ərzində istənilən vaxt basmaq olar.

- əgər komanda falstart edirsə–yəni düyməni serena siqnalı yanmazdan əvvəl basırsa bu suala cavab vermək hüququndan məhrum edilir.

- birinci saniyədə suala düzgün cavab verməyən komanda cərimələnir. Suala səhv cavab verən komanda üzvü qırmızı kart alır və rinqin sonunadək oyunu tərk edir.

- əgər düyməni birinci basan komanda səhv cavab veribsə,ikinci komanda bu suala cavab verə bilər. Müzakirə üçün komanda qalan vaxtdan istifadə edə bilir.

- falstart edən oyunçu görüşün sonunadək oyunu tərk edir.

- düzgün cavab verən komanda 1 xal qazanır.

- əgər hər iki komanda suala düzgün cavab verməsə , qazanılmayan xallar toplanır.

- növbəti sualın cavabı komandalara 2 xal qazandırır. Əgər bu suala da düzgün cavab verilməsə onda növbəti düzgün cavab 3 xaldır.

- əgər hər iki komanda bir- birinin ardınca 3 suala düzgün cavab verməsə onda komandalar diskvalifikasiya edilir və rinqi tərk edir.

Sualların tərtibatı və oyun avadanlığı Azərbaycan İntellektual Klublar Assosiasiyası tərəfindən təmin edilir.